

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

21 avqust 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 32 (3744)

# Azərbaycanın mövqeyi güclənir

**Vətən müharibəsinə qədər görünən reallıq bu idi ki, Ermənistanın təcavüzkar siyasəti uzun illər davam edəcək və bu müharibə Qafqazda heç vaxt bitməyəcək münaqişə statusu qazanacaqdı.**



## Sülh gündəliyində əsas istiqamətverici tərəf ölkəmizdir

Tərəflər arasında kompramis siyasətə meyllər olsa da təəssüflər olsun ki, kənar təsirlər, hər iki ölkə arasında siyasi, iqtisadi diplomatik əlaqələrin qurulmamasında maraqlı olan güclər buna imkan vermirdilər. Münaqişənin həllində heç Ermənistan tərəfi də maraqlı deyildi. Çünki işğal altındakı torpaqlarda kriminallaşmış klanlar böyük biznes imperiyası qurmuş, narkotik plantasiyaları salmış, hətta həmin ərazilər narkotik ticarəti üçün də tranzitə çevrilmişdi. Ermənistan rəhbərliyində bir zamanlar təmsil olunmuş şəxslərin müharibə ritorikası, yeni ərazi iddiaları Nikol Paşinyan hökumətinin əsas siyasi xəttini təşkil etsə də sonrakı proseslər bunun daxili auditoriyaya hesablandığını təsdiqlədi.

> *“Prezident İlham Əliyev bir daha sübut etdi ki, beynəlxalq aktorlar sülh prosesinə aktiv şəkildə qoşulmalıdırlar”*

Vətən müharibəsi Qafqaza yeni reallıqlar gətirdikdən sonra Ermənistanın yumşaq siyasəti nəzərlərdən qaçmadı. Bakının haqlı tələblərini Ermənistan rəhbərliyi yerinə yetirmək məcburiyyətində idi. Daxili gərginliyi azaltmaq, iqtidara açıq düşmənçiliyi təşviq edən müxalifət düşərgəsini zəiflətmək üçün beynəlxalq dəstək axtarışına çıxan Nikol Paşinyan avqustun 8-də okeanın o tayında Ermənistanı və erməni xalqını məhv olmaq təhlükəsindən qoruyan sülh sammitində iştirak etməklə regionda yeni dövrün başlanğıcına səbəb olan tarixi anlaşmaya imza atdı.

Siyasi şərhçilərin qənaətinə görə əslində okeanın o tayında imzalanan Birgə Bəyannamə əslində İlham Əliyevin növbəti diplomatik qələbəsi idi. Çünki bütün hərbi və siyasi qələbələr reallıq üzərində qurulan möhkəm siyasi iradə ilə formalaşır. Prezident İlham Əliyev bu iradəni illərlə ardıcıl şəkildə apardığı siyasətdə nümayiş etdirib. Əgər bu gün Bakı diplomatik masada “qaydaları müəyyən edən tərəf” mövqeyindədirsə, bu, uzunmüddətli strateji planlaşdırmanın, güc balansını dəyişdirən addımların və reallığı diplomatiyanın əsas alətinə çevirən yanaşmanın nəticəsidir. Sülhün yeni memarı kimi İlham Əliyev regionun yalnız bu günü üçün deyil, gələcək onillikləri üçün də siyasi arxitektura qurur.

Prezident İlham Əliyevin ABŞ-a səfəri zamanı “Fox News” telekanalına verdiyi müsahibədə səsləndirdiyi “İstər regionumuzdan olan, istərsə də regionumuzdan kənarda yerləşən istənilən dövlət tərəfindən bugünkü nailiyyətlə bağlı hər hansı bir mənfi fikir bildirilməsi çox çətin olar. Çünki bu gün biz sülh istiqamətində yekun addımı atdıq” bəyanatı Cənubi Qafqaz diplomatiyasında yeni siyasi reallığın qısa, lakin dərin ifadəsi kimi qiymətləndirilməlidir. Prezidentin sözləri sırf diplomatik üslubun tələbi olaraq səsləndirilmiş politoloji jest deyil. Burada həm milli maraqların qorunması, həm də regional geosiyasi mühitin yenidən formatlanması üçün aparılan çoxillik strategiyanın kulminasiya nöqtəsi əksini tapır.

Rəsmi Bakının hadisələrə beynəlxalq hüququn bütün normalarına uyğun yanaşması, Prezident İlham Əliyevin siyasi mövqeyindəki qətiyyətlilik, regionda kimsənin diktəsi ilə hərəkət etməmək kimi əsl liderlik xüsusiyyətləri, o cümlədən şəxsi keyfiyyətləri beynəlxalq vasitəçilərin də mövqelərini dəyişməyə məcbur etdi.

Sülhə doğru atılan hər bir addım, sülh prosesində normativ modeldən fakt-mərkəzli modelə keçid, əslində, Azərbaycanın diplomatiyasında yeni bir mərhələdir. Vaşinqton görüşü Prezident İlham Əliyevin bölgədə sülhün çətiri altında birgə inkişaf strategiyasını hədəflədiyini bir daha nümayiş etdirdi.

# Günün mövzusu sülhdür

## Dünya mətbuatı Vaşinqton görüşünə geniş yer ayırıb

Bakı ilə İrəvan arasında sülh sazişi ilə bağlı Birləşmiş Ştatların paytaxtında Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın görüşünə dair dünyanın nüfuzlu media orqanlarında məqalələr dərc olunub.

“Reuters” agentliyinin dərc etdiyi geniş məqalədə qeyd olunur ki, bu görüş 40 ilə yaxındır davam edən münaqişənin həlli üçün sülh sazişi üzərində çalışan tərəflərin razılıq əldə edəcəyi ümidlərini gücləndirir.

“The Washington Post” qəzetinin dərc etdiyi məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan rəsmilərinin Ağ evdə ABŞ-a strateji tranzit dəhlizinə müstəsna inkişaf hüququ verən sülh sazişi, daha dəqiq desək, “Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu” adlanan pakt Azərbaycanı Ermənistan vasitəsilə Azərbaycanın eksklavı olan Naxçıvanla birləşdirəcək və ABŞ-a inkişaf hüququ verən sənəd olacaq. “The Guardian” nəşrində onilliklərlə davam edən hərbi əməliyyatlara son qoymaq məqsədi daşıyan “Tarixi sülh sammiti”nin “iqtisadi imkanları birgə həyata keçirmək üçün hər iki ölkə ilə” ikitərəfli müqavilələr imzalanacağına və bunun, Cənubi Qafqaz regionunun potensialını ortaya çıxaracağına əminlik vurğulanır.

“France24” telekanalının saytında dərc olunan məqalədə Azərbaycan liderinin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin ikitərəfli münasibətlərin gündəliyinin və regional məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını bildiriblər.

“Politico” nəşri yazır ki, birgə bəyannamə uzun müddətdir düşmən olan iki ölkə tərəfindən imzalanmış ilk ikitərəfli sənəd olacaq.

“The Hill” nəşri, “Al Jazeera” telekanalı bu sammiti Şərqi Qafqazda sülh üçün dönüş nöqtəsi olaraq təqdim edir və vurğulayır ki, Zəngəzur koridorunun yaradılması işğüzar səfərinin ikitərəfli mü- regional ticarətə və əməkdaşlığa imkan açır, həmçinin ABŞ-ın bu bölgədəki rolunu gücləndirir.

“Deutsche Welle” bu layihəni “Orta Dəhliz” şəbəkəsinin ayrılmaz bir hissəsi kimi görür. Vurğulanır ki, Zəngəzur koridoru Azərbaycana enerji və nəqliyyat mərkəzi kimi güc qazandıracaq, Ermənistan üçün isə iqtisadi diversifikasiya imkanıdır.

“Financial Times” koridorun infrastruktur layihələri üçün beynəlxalq investorları cəlb edəcəyini və Cənubi Qafqazın infrastruktur bazarında yeni fürsətlər doğuracağını vurğulayır.

“The Wall Street Journal” üçün bu koridor Avropanın enerjidə Rusiyadan asılılığını azaltmaq üçün strateji bir vasitədir. “Japan Times” bu təşəbbüsün Çinin “İpək Yoluna” rəqib ola biləcəyinə dair beynəlxalq arenada əhəmiyyətli bir tranzit yol olduğunu təhlil edir.

“Haaretz” üçün bu sənəd regional təhlükəsizliyi gücləndirən bir strateji addımdır; İsrail bu sülh prosesini kibertəhlükəsizlik və texnologiya sahəsində əməkdaşlıq üçün fürsət kimi görür.

Nəticə etibari ilə demək olar ki, Vaşinqton sammiti dünyada sülh üçün atılan, Cənubi Qafqazda qan tökülməsinin qarşısını alan beynəlxalq addım kimi dəyərləndirilir.

# Səmərəli əməkdaşlıq

## Münasibətlər inkişaf edir

Prezident İlham Əliyev avqustun 14-də İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə İndoneziya Respublikasının Prezidenti Zati-aliləri cənab Prabovo Subiantoya öz adından və Azərbaycan xalqı adından təbrik məktubu ünvanlayıb. Dövlətimizin başçısı məktubunda vurğulayıb ki, Azərbaycan-İndoneziya münasibətlərinin son dövrlərdə inkişaf dinamikası, istər ikitərəfli qaydada, istərsə də çoxtərəfli strukturlar çərçivəsində əməkdaşlıq məmnunluq doğurur.

Prezident bir çox sahələrlə yanaşı, beynəlxalq strukturlar çərçivəsində səmərəli əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

# Qarşılıqlı etimad

## Ölkəmizə yeni səfirlər təyin olunub

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 18-də Slovakiya Respublikasının və İsrailin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərini qəbul edib.

Səfirlər etimadnamələrini dövlətimizin başçısına təqdim ediblər.

Prezident İlham Əliyev səfirlərlə söhbət edib. Görüşlərdə ikitərəfli siyasi, iqtisadi, ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb.

# Görüş müzakirə edilib

## Dialoq gələcək perspektivlər vəd edir

Avqustun 14-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Antonio Koşta Vaşinqtonda Azərbaycanla Ermənistan arasında ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması və regional nəqliyyat dəhlizi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik edib.

Təbriklərə görə Prezident İlham Əliyev minnətdarlığını bildirib.

Dövlətimizin başçısı və Antonio Koşta Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev 16 avqust 2025-ci ildə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi və onlara ali hərbi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev 14 avqust 2025-ci ildə Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Afaq Bəşir qızı Səfərovanın “Şərəf” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev 14 avqust 2025-ci ildə Tovuz rayonunun Çatax kəndini Gədəbəy rayonunun Novosaratovka kəndi ilə birləşdirən Çatax-Çeşməli-Mollalar-Məşədivəlilər-Həsənli-Abbasqulular-Papaqçılar-Güvəndik-Lazılar-Novosaratovka avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*

Sözünüzü polis rəisinə deyin................2
İdeoloji hazırlıq vacib şərtdir.................3
Təhlükəyə sipərdirlər............................3
Torpağımız, tariximiz............................4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il avqust ayının 29-da Xaçmaz Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 28.08.2025-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

# Respublika Xəbərləri

### Qarabağla bağlı sənədlər tapıldı

Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri arxiv sənədlərinə baxılaraq həyata keçirilir. Belə ki, həmin arxiv sənədləri Milli Arxiv İdarəsinin Elm və Texnika Sənədləri Arxivində mühafizə olunur. İşğaldan azad olunan rayonların bərpası zamanı məhz bu arxiv sənədlərindən istifadə olunur.

### Yeni svetoforlar quraşdırılıb

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin əməkdaşları tərəfindən Yasamal rayonu, Hüseyn Cavid prospekti ilə Bəxtiyar Vahabzadə küçəsinin kəsişməsində 2 ədəd svetofora yeni piyada bölmələri quraşdırılıb. Bununla da, metronun "Elmlər Akademiyası" stansiyasından istifadə edən şəxslərin daha çox üstünlük təşkil etdiyi bu kəsişmədə piyadalar üçün təhlükəli vəziyyətin yaranmasının qarşısı alınıb. Həmçinin Nəsimi rayonu, Asif Məhərrəmov küçəsinin Mir Cəlal küçəsi ilə kəsişməsində 2 ədəd əlavə dirəklər olmaqla, 4 ədəd piyada svetoforu quraşdırılıb.

### Etimad xətti yaradılıb

Silahlı Qüvvələrdə korrupsiyaya qarşı mübarizə və ona şərait yaradan halların aradan qaldırılması, şəffaflığın artırılması, hərbi qulluqçular və onların ailə üzvləri ilə Hərbi Prokurorluq arasındakı etimadın möhkəmləndirilməsi, cinayətkarlığa və digər qanun pozuntularına qarşı tədbirlərin çevikliyini, vətəndaşların hüquqlarının daha etibarlı müdafiəsini, eləcə də müraciət imkanının asanlaşdırılmasını, bir sözlə, istənilən neqativ halın və ağır nəticənin vaxtında qarşısının alınmasını təmin etmək məqsədi ilə "962" Etimad xətti yaradılıb.

### Muzdla çalışanların əməkhaqqı artıb

2025-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1097,3 manat təşkil edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, əməkhaqqı neft-qaz sektorunda 3918,7 manat, qeyri-neft-qaz sektorunda 1044,9 manat olub. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 1061,8 manat, özəl müəssisələrdə isə 1133 manat təşkil edib. Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olub.

### ANAMA əməkdaşları təlimdə…

Tacikistan Milli Minatəmizləmə Mərkəzi Azərbaycan Minatəmizləmə Agentliyinin Göygöl Regional Təlim Mərkəzində ANAMA əməkdaşlarına mürəkkəb relyefli ərazilərdə minatəmizləmə əməliyyatları üzrə 12 gün nəzəri və praktiki təlimlər keçib.

### İxtisas seçimi başa çatıb

Bakalavriat səviyyəsi üzrə 86 min 460 abituriyent ali təhsil müəssisələrinə elektron ixtisas seçimi ərizələrini təsdiq edib. Onlardan 23 min 919-u I qrup üzrə, 19 min 41-i II qrup üzrə, 24 min 414-ü III qrup üzrə, 6 966-sı IV qrup üzrə, 16 min 517-si isə V qrup üzrə seçim edib.

# Sözünüzü polis rəisinə deyin

## Vətəndaşlara birbaşa müraciət imkanı yaradılıb

Hüquq-mühafizə orqanlarının gücü yalnız qanunların icrasını təmin etməklə deyil, həm də vətəndaşın səsini eşitmək və onun qayğısına qalmaq bacarığı ilə təsdiq edilir. Bu, elə vacib şərtdir ki, fikrimizi elə felin vacib formasında "təsdiq edilməlidir" deyə də vurğulaya bilərik.

Daxili İşlər Nazirliyinin vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini hər gün daha da yüksəltmək, şəffaflığı və əlçatanlığı təmin etmək üçün atdığı addımlar bu baxımdan əvəzsiz nümunədir. Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər nazirinin, o cümlədən digər nazirlərin hər ay bölgələr üzrə vətəndaşları qəbul edib müraciətlərini şəxsən dinləməsi artıq dövlət idarəçilik ənənəsinə çevrilib. Bu ənənə indi ölkənin bütün şəhər və rayonlarında polis idarə, şöbə və bölmə rəislərinin vətəndaşlarla birbaşa görüşləri ilə davam etdirilir. İnsanlar problemlərini məsul şəxsə vasitəçisiz çatdırmaq imkanı qazanıblar.

### Niyə birbaşa ünsiyyət vacibdir?

Hər kollegiya və ya nazirlik əməliyyat müşavirələrində nazirin polis rəislərinə əsas tapşırıqlarından biri odur ki, rəislər yalnız qəbul günləri ilə kifayətlənməsin, daim insanların arasında olsun, onların gündəlik qayğılarını yerində dinləsin və istənilən problemlərinin müsbət həllinə yardımçı olsunlar. Digər tərəfdən, bu, polis - vətəndaş münasibətlərində açıq ünsiyyəti




möhkəmləndirən, qarşılıqlı etimadı artıran əsas şərtlərdəndir. İnsanlarla üzbəüz danışmağın problemlərin real həyat şəraitində həllinə şərait yaratdığı ilə polislər gündəlik xidmətlərində tez-tez qarşılaşırlar. Birbaşa görüşlər, vətəndaşın yaşadığı problemi, təklif və təşəkkürlərini maneəsiz məsul şəxsə çatdırmaq imkanı yaradıb. Burada heç bir vasitəçi olmadan, operativ və şəffaf şəkildə ünsiyyət qurulur.

Problemin daha tez və obyektiv şəkildə həll olunması, məsələ ilə bağlı dərhal reaksiya verilməsi, təbii ki, dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı etimadı möhkəmləndirir. Polis problemləri birbaşa mənbədən öyrəndiyinə, işin təşkilində və qərarların verilməsində real situasiyaya uyğun addımlar atdığına görə obyektivlik də təmin olunur. Bunun strateji nəticəsi isə özünü vətəndaşın polisdən məmnun qalması, ictimai təhlükəsizliyin və asayişin qorunmasında könüllü iştirak etməsi ilə biruzə verir.

### "E-polis" effektli körpü yaradıb

"E-Polis" mobil tətbiqi polis rəislərinin qəbullarını vətəndaşlar üçün daha da əlçatan edib. Artıq qəbul üçün saatlarla növbə gözləməyə və uzaq məsafə qət etməyə ehtiyac yoxdur. Telefon ekranında cəmi bir neçə toxunuşla görüş vaxtını təyin etmək, müraciətini göndərmək mümkündür. Bu, vaxtına qənaət etmək istəyən hər kəs üçün böyük rahatlıqdır.

Hər bir müraciətin dərhal Nazirlik tərəfindən nəzarətə götürülməsi, qısa zamanda həll üçün zəruri tapşırıqların verilməsi və nəticənin vətəndaşa çatdırılması prosesin vətəndaş məmnuniyyətinə hesablandığını göstərir. Bu, polisə olan münasibətdə qarşılıqlı etimadı artırır, cəmiyyətlə hüquq-mühafizə orqanları arasında effektli körpü yaradır.

Ən böyük nailiyyət isə insanların özünü diqqət mərkəzində hiss etməsidir. Polis-vətəndaş münasibətində etimad varsa, təhlükəsizlik də, asayiş də daha möhkəm olur. Daxili İşlər Nazirliyinin məqsədi də məhz budur – hər kəsin güvənlə üz tutacağı, dinlənildiyinə əmin olduğu bir ünvan olmaq. Son dövrlərdə keçirilən rəy sorğuları və beynəlxalq indekslərdə Azərbaycan polisinin işinə olan ictimai etimad göstəricilərinin yüksək olması isə bu hədəfin artıq real nəticələr verdiyini sübut edir.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Gələcəyin zabitləri

## Gənclər Polis Akademiyasını nüfuzlu peşə ünvanı kimi seçirlər

Polis Akademiyasına qəbul prosesi uğurla başa çatdı və nəticələr əvvəlki illərlə müqayisədə daha diqqətçəkən oldu. Akademiyaya ayrılan yerlərin sayı artırılsa da, bütün yerlər tam doldu və artıq yeni tədris ilinə hazırlıq işləri gedir.

Nüfuzu ilə seçilən bu ali təhsil ocağında qəbul balları yenə yüksəkdir. Hüquqşünaslıq ixtisasında ən yüksək nəticə 675,3, informasiya təhlükəsizliyində isə 675,7 bal olub. Minimum keçid balları isə müvafiq olaraq 463,9 və 569,3 bal təşkil edir. Bəri başdan onu da qeyd edək ki, keçid balının yüksəlməsi, Akademiyanın digər universitetlər qarşısında rəqabət gücünün daha da artdığını göstərir.

Bu nəticə həm də onu təsdiq edir ki, Akademiyanın auditoriyaları imtahanlarda yüksək nəticə göstərən gənclərlə dolur.

Üstəlik, polis peşəsinə qəbul isə sadəcə yazılı imtahanla məhdudlaşmır, fiziki hazırlıq normativləri, "mandat" adlanan müsahibə mərhələsi və məlum bilik imtahanı polis peşəsini seçənlərin əsas sınaq mərhələləridir. Bu, sabahın asayiş keşikçilərinin yalnız savadlı və hazırlıqlı kadrlardan formalaşmasına zəmanət verir. Şəffaf imtahan prosesi isə sosial vəziyyətindən asılı olmayaraq istənilən istedadlı gəncin






Akademiyaya qəbul olunmasına imkan yaradır.

Kursant sayının artması, təhsil müəssisəsinin imkanlarının da genişlənməsini, maddi-texniki bazanın müasir tələblərə uyğunlaşdırılmasını şərtləndirir. Bu isə o deməkdir ki, Akademiyanı seçən hər bir gənc burada yataqxana, geyim, qidalanma və tədris vəsaitləri tam şəkildə təmin olunur.

Yeri gəlmişkən, bu ilki qəbulun başqa bir uğuru da polis zabiti olmaq istəyən abituriyentlərin sayındakı artım göstəricisidir.

Ötən il 2250 nəfərin müraciət etdiyi imtahanlara bu il 2938 nəfər qatılıb. Onlardan 550 nəfər hüquqşünaslıq, 25 nəfər isə informasiya təhlükəsizliyi ixtisasına qəbul olub.

Əldə olunan nəticə ötən tədris ilində Daxili İşlər Nazirliyinin orta məktəblərdə apardığı təşviqedici tədbirlərin böyük rolu olduğunu gözlər önünə sərir.

Qeyd edək ki, bütün ölkə üzrə keçirilən görüşlərdə şagirdlərə polis peşəsinin üstünlükləri, Akademiyanın təhsil imkanları, qəbul qaydaları barədə ətraflı məlumat verilib, suallar cavablandırılıb və bukletlər paylanıb.

Bu söhbətlərdə daxili işlər orqanlarının ölkədə təmin etdiyi sabitliyin əhəmiyyəti vurğulanıb, gənclərə bu şərəfli xidmətdə iştirak imkanı tanıdılıb.

Təhlillər göstərir ki, ən səmərəli nəticə yenə Gəncədə əldə olunub. Ötən ildə olduğu kimi, bu il də Gəncə müraciət sayına görə liderdir. Şəhərin 42 məzunu kursant adını qazanıb.

Abşeron və Şəmkir rayonları isə hər biri 18 nəfərlə növbəti yerlərdə qərarlaşıb. Bakı şəhərindən ümumilikdə 115 nəfər (109 hüquqşünaslıq, 6 informasiya təhlükəsizliyi) qəbul olub. Paytaxtın rayonları üzrə Nərimanov rayonu 14 kursantla önə çıxır.

Bir sözlə, ölkə üzrə mütəmadi və səmərəli təbliğat işləri nəticəsində bu il Polis Akademiyasına maraq rekord həddə çatıb. Yüksək müraciət sayı, artan keçid balları və güclənən maddi-texniki baza göstərir ki, gənclər bu ali məktəbi gələcəyin etibarlı və nüfuzlu peşə ünvanı kimi görürlər.

# Etimad fəaliyyətin göstəricisidir

## Fikrə, sözə çevrilən məmnunluq

Sosial şəbəkə istifadəçisi Elmar Mansurov baş vermiş yol-nəqliyyat hadisəsilə bağlı obyektiv araşdırma aparılmasına və göstərilən köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin kollektivinə təşəkkürünü bildirir.

Sosial şəbəkə istifadəçisi Tural Qardaşxanov ona qarşı törədilən dələduzluq faktı ilə bağlı şikayətinə obyektiv baxılaraq dəyən maddi ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə Nizami Rayon Polis İdarəsinin kollektivinə təşəkkür edir.

Sosial şəbəkə istifadəçisi Adbala Mahmudov oğurlanan əşyalarının qısa müddətdə tapılaraq ona qaytarılmasında əməyi olan Nəsimi Rayon Polis İdarəsinin rəhbərliyinə minnətdarlıq edir.

Sosial şəbəkə istifadəçisi Daşqın Mahmudov ünvanladığı təşəkkür məktubunda gəzinti zamanı səhhətində problem yarandığını qeyd edir və onu mənzilinə təhlükəsiz şəkildə çatdırdıqlarına görə xidmətdə olan Pirallahı RPİ PPX əməkdaşlarına minnətdarlığını bildirir.

Jurnalist Rövşən Hüseynov "Facebook" sosial şəbəkəsindəki hesabında Azərbaycan polisinə təşəkkür mesajı paylaşıb. O, vətəndaşlardan birinin ünvanladığı müraciətə əsasən Daxili İşlər Nazirliyinə məlumat verdiyini və müraciətinə həssaslıqla yanaşıldığını bildirir.

# İdeoloji hazırlıq vacib şərtdir

## Keçirilən görüşlər xidmətdə dönüş yaradır

Gənc polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə tədbirlər davam etdirilir.

Bu istiqamətdə növbəti görüş Nərimanov Rayon Polis İdarəsində keçirilib.

Tədbiri giriş sözü ilə açan DİN Bakı Şəhər Baş Polis İdarəsi rəisinin şəxsi heyətlə iş üzrə böyük köməkçisi polis polkovniki Oqtay Süleymanlı Vətən müharibəsindən sonra təkcə ölkəmizdə deyil, bölgədə yaranan reallıqlara diqqət çəkib. Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq dəstək qazandığını ən böyük siyasi uğurlardan biri kimi dəyərləndirən natiq bunun həm də daxili sabitliyə təsirinin əhəmiyyətindən danışıb.

Ölkəmizdə sabitliyin bərqərar olunmasında daxili işlər orqanlarının fəaliyyətinin ölkə və DİN rəhbərliyi tərəfindən yüksək



qiymətləndirilməsi məsuliyyət hissimizi artırır deyən polis polkovniki tədbirin mövzusuna uyğun olaraq xidmət zamanı vətəndaş-polis münasibətlərini daha da möhkəmləndirən etik-davranış kodeksinin müddəalarına əməl edilməsinin vacibliyini önə çəkib.

Qeyd olunub ki, Post-Patrul Xidməti əməkdaşının vətəndaşla davranışı qanunvericiliyə, etik normalara və xidmət intizamına uyğun olmalıdır. Nəzakət və hörmət, qanun çərçivəsində hərəkət, bərabərlik, köməklik göstərmək, sakitlik və peşəkarlıq kimi xidmətin təməl prinsipləri əsas götürülməlidir.

Tədbirdə xüsusən polisin fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə mənfi rəyin formalaşmasının başlıca səbəbi olan korrupsiya və digər halların yolverilməzliyi, xidməti konfidensiallığı qorumanın rəhbərlik tərəfindən əsas tələb kimi diqqətdə saxlanıldığı əməkdaşlara izah edilib.

Sonra mövzu ilə bağlı iştirakçıların sualları cavablandırılıb, xidmət apararkən vətəndaş məmnunluğunu şərtləndirən təmkin, peşəkarlıq və yüksək iradə nümayiş etdirmələrinin ümumi işə, qanunçuluğa, sabitliyin daha etibarlı qorunmasına fayda verəcəyi vurğulanıb.

# Təhlükəyə sipərdirlər

## İctimai asayişi qoruyur, cinayətkarlıqla da mübarizə aparırlar









Dövlətin strateji sabitliyini mühafizə etmək hüquq-mühafizə orqanlarının əsas vəzifəsidir. Polisin bu istiqamətdə həyata keçirdiyi fəaliyyət isə kifayət qədər genişdir və əhatəlidir. Cinayətkarlıqla mübarizə, ictimai asayişi qorumaq, dövlət əmlakını, strateji obyektləri və vətəndaşlara məxsus əmlakı qorumaq polisin dövlətin dayaqlarının möhkəmləndirilməsindəki rolunu gözlərimiz önünə sərmiş olur. Bütün bunların öhdəsindən gəlmək üçün sözsüz ki, yüksək peşəkarlıq, fiziki hazırlıq və çeviklik tələb olunur.

Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin idarə, şöbə və bölmələrinin əməkdaşları günün 24 saatı boyunca həm dövlət obyektlərinin təhlükəsizliyinə cavabdehlik daşıyır, təhdidlərə qarşı operativ və qətiyyətli müdaxilə etməyə hər an hazırlıqlı olur, həm sabitliyi qoruyur, həm də cinayətkarlıqla qətiyyətli mübarizə aparırlar. Bu vəzifələrin öhdəsindən gəlmək üçün peşəkarlığın təməl prinsiplərindən olan fiziki hazırlığın yüksəldilməsi isə vacib şərtlərdəndir.

Baş İdarənin əməkdaşları üçün fiziki hazırlıq məşqləri müntəzəm xarakter daşıyır. Sabunçu Rayon Mühafizə İdarəsində də əməkdaşların fiziki hazırlığına xüsusi diqqət göstərilir. Bununla bağlı müvafiq normativlər əsasında yoxlamalar keçirilir, praktiki təlimlər üzrə məşğələlər təşkil olunur. Məqsəd hər bir əməkdaşın həm gündəlik xidmətdə, həm də fövqəladə vəziyyətdə öz vəzifəsini qüsursuz yerinə yetirməsini təmin etməkdir.

### Hazırlıqlı olmaq məsuliyyət göstəricisidir

İdarə rəisi polis polkovniki Habil Əsədov deyir ki, əməkdaşların hazırlıq səviyyəsinin yüksəldilməsi təkcə fiziki gücün artırılması deyil, həm də peşəkarlığın və məsuliyyət hissinin gücləndirilməsinə xidmət edir. Bu məqsədlə idman təlimatları və nəzəri dərslərin keçirilməsi, ümumilikdə təlim-tərbiyə işlərinin sistemli şəkildə aparılması daim diqqət mərkəzində saxlanılır. Bu cür hazırlıqlar cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin qorunmasında, eləcə də fövqəladə hallara çevik reaksiya göstərilməsində vacib rol oynayır.

İdarə rəisi onu da vurğulayır ki, keçirilən bütün təlimlər və dərslər DİN rəhbərliyi tərəfindən nəzarətdə saxlanılır və nəticələrə əsasən, gələcək addımlar planlaşdırılır.

### Fiziki hazırlıq təkcə güc deyil, həm də peşəkarlıqdır

Faktların təhlili göstərir ki, dövlət obyektlərinin və vətəndaşların əmlaklarının təhlükəsizliyi etibarlı əllərə tapşırılıb – bu əllər fiziki cəhətdən hazırlıqlı, mənəvi cəhətdən dayanıqlı və peşəkar ruhda çalışan polis əməkdaşlarına məxsusdur. İdarədə səhərin ilk saatlarında başlayan məşqlərdə təkcə əzələlər bərkimir, məsuliyyət də möhkəmlənir. Sıra meydanında təkcə addımlar səslənmir, peşəyə sədaqətin ritmi duyulur. Və bu, hər bir əməkdaşa xatırladır ki: “Sən bu xidmətdəsən, sənə etibar edilir və etimad göstərilir”.

Bu səbəbdən, cəsarətlə deyə bilərik ki, mühafizə polisinin əməkdaşları təkcə mühafizəçi deyil, həm də dövlətin strateji sabitliyinin canlı qalxanlarıdır.

# Veteranlarımız konfransda...

## Zəfərimizin sülhə aparan yolunda onların xidməti danılmazdır

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Vaşinqton görüşü və bu görüşün tarixi əhəmiyyətinə həsr olunmuş “Zəfərimizin sülhə aparan yolu” adlı konfrans təşkil olunub.

Tədbirdə millət vəkilləri, tanınmış ziyalılar, müxtəlif kateqoriyadan olan veteranlar, şəhid ailələri, zabit və kursantlar iştirak ediblər.

Əvvəlcə ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov Vaşinqtonda əldə edilən razılaşmanın tarixi, siyasi və iqtisadi əhəmiyyətindən bəhs edib, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsində əldə olunan Qələbəni diplomatik müstəvidə uğurla tamamlayaraq yeni mərhələnin əsasını qoyduğunu bildirib.

Vurğulanıb ki, avqustun 8-də Ağ Evdə Amerika Birləşmiş Ştatlarının (ABŞ) təşəbbüsü və vasitəçiliyi ilə “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş” layihəsinin paraflanması, eləcə də Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması sülh yolunda mühüm tarixi hadisədir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan əsgərinin döyüş meydanında qazandığı parlaq Zəfəri diplomatik sferaya - danışıqlar masasına daşıyaraq rəsmiləşdirdi. Bununla, qlobal güclərə qələbədən sülhə keçidin yeni reallığını qəbul etdirməyi bacardı, beynəlxalq münasibətlərdə ölkəmizin mövqeyini möhkəmləndirdi. Müdrik siyasət nəticəsində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların açılması haqqında razılaşma da sənəddə təsbit olunub. Bu, həm



də dəhlizin reallaşmasında gələcəkdə yarana biləcək situasiyalara qarşı ABŞ-ın əsas qarant olmasının göstəricisidir.

Qeyd edək ki, DİN-in Veteranlar Şurasının sədri və üzvləri də konfransda iştirak edib, 8 avqust razılaşmasının tarixi və regional əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

*Gümüş Kazımzadə*
*polis leytenantı*

# Həyati vacib missiya

## Bu vətəndaşlıq borcu həyat bəxş edir

“Talassemiyasız həyat naminə” proqram layihəsinə əsasən ölkəmizdə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkənlərə yardım məqsədilə keçirilən qanvermə aksiyalarında polis hər zaman həmrəylik nümayiş etdirib.

Növbəti belə tədbir Nərimanov Rayon Polis İdarəsində Səhiyyə Nazirliyinin B.Eyvazov adına Respublika Elmi-Tədqiqat Hematologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankının təşkilatçılığı və dəstəyi ilə baş tutub. Həmkarlarımız qan verib, can yaşatmaq üçün səfərbər olaraq hamılıqla aksiyada iştirak ediblər.

Əvvəlcə xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu müəyyən olunub, onların səhhətində hər hansı bir problemin olub-olmaması yoxlanıldıqdan sonra qanvermə aksiyasına start verilib.

# Polis köməyə çatdı

## YPX əməkdaşları çeviklik göstərdilər

Paytaxt sakini Gülağa Məmmədov idarə etdiyi “Mercedes” markalı avtomobillə Bakı-Şamaxı-Yevlax avtomobil yolunda hərəkətdə olarkən nəqliyyat vasitəsinin mühərrikində yanğın müşahidə edilib. Avtomobili getdikcə alovlanan sürücünün köməyinə yol polisi çatıb. İlk növbədə digər hərəkət iştirakçılarının təhlükəsizliyini təmin edən YPX Alayının əməkdaşlarının çevikliyi sayəsində şiddətlənən alov söndürülüb, avtomobilin tamamilə yanaraq sıradan çıxmasının qarşısı alınıb.

# Quldurluq edənlər saxlanıldı

## Barələrində həbs qətimkan tədbiri seçilib

Masallı rayonunda yerləşən evlərdən birində quldurluq hadisəsi qeydə alınıb. Yaşayış evinə daxil olan maskalı şəxs ev sahibini hədələyərək pul tələb edib və ona kəsici alətlə xəsarət yetirərək oradan uzaqlaşıb. Masallı Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirlərilə quldurluq əməlini törətməkdə şübhəli bilinən Tovuz rayon sakini 31 yaşlı Hikmət Şəmistanlı müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla H.Şəmistanlının həmin cinayət əməlini zərərçəkmişin qohumu olan 31 yaşlı Elçin Həsənovla qabaqcadan əlbir olub razılığa gələrək törətdiyi müəyyən edilib. Belə ki, E.Həsənov qohumuna məxsus yaşayış evini qarət etmək üçün tanışını yaşadığı rayona çağırıb və həmin ünvanda xeyli miqdarda pulun olduğunu bildirib.

Faktla bağlı başlanmış cinayət işi üzrə istintaq araşdırmaları davam etdirilir.

# Qardaşlar həbs edildi

## İran vətəndaşına narkokuryerlik edirdilər

Yasamal Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotiklərin satışı və qanunsuz dövriyyəsinə qarşı keçirilən əməliyyat zamanı əvvəllər məhkum olunmuş 31 yaşlı Yusif Əliyev və qardaşı 33 yaşlı İlkin Əliyev saxlanılıb. Onların avtomobil və evlərinə baxış zamanı 6 kiloqramdan artıq narkotik vasitə olan marixuana aşkarlanıb. Onların şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı ilə cinayət əlaqəsinə girərək narkotik vasitələri gizlədilən ünvanlardan əldə etdikləri və satış məqsədi ilə əvvəlcədən təyin edilən nöqtələrə yerləşdirməyi planlaşdırdıqları məlum olub.

Faktla bağlı cinayət işi başlanılıb, əməliyyat tədbirləri davam etdirilir.

# “Xaş-xaş-2025”

## Sabirabadda və Ağdamda yabanı halda bitən çətənə bitkiləri məhv edilib

Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri “Xaş-xaş-2025” şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər çərçivəsində rayonun Cavad kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib. Ümumi çəkisi 2 ton 250 kiloqram olan 2635 ədəd çətənə bitkisi yandırılaraq məhv edilib.

Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən də "Xaş-xaş 2025" planına uyğun olaraq tədbir keçirilib.

Tədbir zamanı Xaçındərbənd kəndi ərazisində yabanı halda bitən çəkisi 2 ton olan 1560 ədəd çətənə bitkisi toplanılaraq yandırılıb.

# Hazırlıqlar başlayıb...

## Üçüncü MDB oyunları Xankəndidə keçiriləcək

I MDB Oyunları Rusiyanın Kazan şəhərində, II MDB Oyunları Belarusda keçirilib. Azərbaycan isə bu il III MDB Oyunlarına ev sahibliyi edəcək.

III MDB Oyunları 2025-ci ildə "Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilən Gəncə şəhərində və ölkənin daha 6 şəhərində keçiriləcək. Sentyabrın 28-dən oktyabrın 8-dək davam edəcək yarışlar 23 idman növünü əhatə edəcək. Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək. Oyunlarda MDB ölkələrinin idman heyətləri ilə yanaşı, Azərbaycan Hökumətinin dəvəti əsasında bir sıra digər ölkələrin idmançılarının da iştirakı gözlənilir. III MDB Oyunlarının rəmzləri (maskotları) və şüarı bəlli olub - rəmzlər "Bəbir" və "Leyla"dır, yarış isə "Hər qəlbdə bir qələbə" şüarı altında keçiriləcək.

Qeyd edək ki, III MDB Oyunlarına hazırlıq çərçivəsində Gəncə şəhərin infrastrukturunun yenilənməsi, abadlıq işlərinin gücləndirilməsi istiqamətində genişmiqyaslı işlər həyata keçirilir.

Təhlükəsizlik tədbirlərinə isə xüsusi diqqət yetirilir. Polis tərəfindən hazırlıqlara başlanılması ilə bağlı DİN Baş İctimai Təhlükəsizlik İdarəsindən qəzetimizə bildirdilər ki, tədbir zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə təsdiq edilmiş Tədbirlər Planından irəli gələn vəzifələrin icrası ciddi nəzarətdə saxlanılır.

Belə ki, xidmətə cəlb edilən qüvvələrin fəaliyyətinin koordinasiyası, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqələrin təşkili, əməliyyat şəraitinin fasiləsiz izlənilməsi, həmçinin hüquq qaydasının qorunması üzrə tədbirlərin icrasına nəzarət məqsədilə əməliyyat qərargahı və köməkçi qərargahlar yaradılıb.








Müvafiq hazırlıq tədbirləri çərçivəsində Təşkilat Komitəsinin və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin təşkilatçılığı ilə keçirilmiş müşavirələrdə Fövqəladə Hallar və Daxili İşlər nazirliklərinin, Prezidentin Təhlükəsizlik, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd, Dövlət Miqrasiya xidmətlərinin və digər dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb, aidiyyəti qurumların fikir və rəyləri dinlənilib.

III MDB Oyunları zamanı görüləcək işlər barədə Baş İctimai Təhlükəsizlik İdarəsində xidmət sahəsi və əməliyyat aparatının rəhbər əməkdaşlarının iştirakı ilə xidmati müşavirə keçirilərək müvafiq tapşırıqlar verilib.

Baş İctimai Təhlükəsizlik İdarəsindən III MDB Oyunları ərəfəsində ölkəmizə çoxsaylı əcnəbilərin gələcəyi nəzərə alınaraq, xidmətə cəlb edilən əməkdaşların seçimi zamanı xarici dili bilənlərə üstünlük verilcəyi, həmçinin 2000 ədəd yaddaş və danışıq, 1500 ədəd digər məlumatları özündə əks etdirən kitabçaların hazırlandığı da diqqətimizə çatdırıldı.

Qeyd edək ki, oyunlarla bağlı 28 iyul – 2 avqust tarixlərində buraxılış nöqtələrində xidmətə cəlb olunacaq 335 əməkdaşa Əlahiddə Çevik Polis Alayının əməkdaşları tərəfindən 3 zonada (Gəncə, Yevlax, Şəki) təlimlər keçirilib, texniki rentgen aparatından (X-Ray) və stasionar metal detektordan istifadə qaydaları öyrədilib.

11-14 avqust tarixlərdə isə Baş Kadrlar və Maddi-Texniki Təminat Baş idarələrinin nümayəndələrinin iştirakı ilə Oyunlar zamanı xidmətə cəlb olunacaq 36 polis orqanından 1634 nəfər (61 qadın) əməkdaşın zahiri görünüşünün, fiziki hazırlığının, o cümlədən nəqliyyat vasitələrinin istismara hazırlığının, şəxsi heyətin geyim formasının vəziyyəti, avtomobillərin üzərlərində olan emblemlərin yararlılığı yoxlanılıb.

*Hafiz Təmirov*
*polis polkovniki*

# Torpağımız, tariximiz…

## Özümüz tanımalıyıq ki, gələcək nəsillərə də tanıda bilək

**İrəvan quberniyasının Aleksandropol qəzasında, Qızılqoç (Qukasyan) rayonunun inzibati ərazisinə daxil olan Başköy kəndi rayon mərkəzindən 11 km cənub-şərqdə yerləşir.** 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. XX əsrin 20-ci illərində kəndin adı dəyişdirilərək Başqyuğ (Başkənd) qoyulmuşdur. Toponim Azərbaycan dilində "böyük, əsas, yuxarı" mənasında işlənən baş sözü ilə, türk dilində "kənd" mənasında işlənən köy sözündən əmələ gəlmişdir. Kənddə 1830-cu ilə kimi qarapapaqlar yaşamışdır. Həmin ildə buraya Türkiyənin Muş vilayətindən ermənilər köçürülmüşdür.

**İrəvan quberniyasının Novobəyazid qəzasında olan Babacan kəndinin tam adı Babacan dərəsidir.** 1728-ci ilə aid mənbədə Qırxbulaq nahiyəsində kənd adı kimi qeyd olunmuşdur. Kənd mülkədar Babacanın dərəsində yerləşdiyi üçün belə adlandırılmışdır. Babacan kəndi XVII əsrin əvvəllərində yaradılmışdır. Kənd rayon mərkəzi Basarkeçərdən 42 km məsafədə yerləşir. 15 iyul 1946-cı ildən 1988-ci ilin dekabrınadək kəndin adı Qızılkənd olmuşdur. Əhalinin qonaqpərvərliyinə, həm də təbiətinin gözəlliyinə görə belə adlandırılmışdır. Bu kəndin bir tərəfi Göyçə gölü, iki tərəfi sıx meşəlik, arxa tərəfi isə dağlarla əhatə olunmuşdur. 19 aprel 1991-ci ildə kəndin adı dəyişdirilərək Tsaratağ qoyulmuşdur.

**İrəvan quberniyasının Eçmiədzin qəzasında, Sərdarabad (Oktemberyan) rayonunun Xeyirbəyli kəndi rayon mərkəzindən 36 km qərbdə, Araz çayının sol sahilində yerləşir.** Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Toponim xeyirbəyli nəsil adı əsasında əmələ gəlmişdir. Kənddə 1831-ci ildə 301 nəfər, sonraki illərdə bu rəqəmlər artmışdır.



1916-cı il siyahısına görə burada 416 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə erməni təcavüzü nəticəsində azərbaycanlı əhali deportasiya olunmuş, buraya ermənilər köçürülmüşdür. Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan sakinlər geri qayıtmışdır. Lakin SSRİ hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949-cu illərdə tarixi-etnik torpaqlarından zorla Azərbaycana köçürülmüşdür. Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyətinin 25 may 1967-ci il fərmanı ilə adı dəyişdirilərək Yervandaşat qoyulmuşdur.

**Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunda yerləşən Nərimanlı kəndinin əvvəlki adı Hüseynquluağalı olmuşdur.** Kəndin sakinləri olan adamların ulu babalarına istinadən dediyinə görə kəndin adı XIV əsrin axırı, XV əsrin əvvəllərindən 1988-ci ilin dekabrına qədər dəfələrlə dəyişdirilmişdir. Hüseynquluağalı 1387-ci ildən 1926-cı ilə qədər, Nərimanlı isə həmin tarixdən 1988-ci ilin dekabrına kimi olmuşdur. Kəndin sonuncu adı olan Nərimanlı böyük partiya və dövlət xadimi Nəriman Nərimanovun adı ilə bağlıdır. Kənd düzənlik ərazidə, rayon mərkəzindən 9 km şərqdə yerləşir. 1916-cı ildə kənddə 1079 nəfər azərbaycanlı yaşamışdır. 1919-cu ilin aprel ayında əhalisi ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra kəndin sakinləri doğma yurdlarına qayıtmışdır. 1987-ci ildə kənddə 3000 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kəndin sakinləri Ermənistan hökuməti tərəfindən zorla deportasiya olunmuşdur.

**Qars vilayətinin Qars qəzasında, Amasiya rayonunda olan Qoncalı kəndi rayon mərkəzindən 14 km şimal-qərbdə yerləşir.** Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Toponim gəncəli türk etnonimi əsasında əmələ gəlmişdir. Ehtimal olunur ki, mənşəcə Anadoludakı Qonça kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Bu kəndin adı erməni mənbələrində Xancallı kimi qeyd olunmuşdur. Kəndin köklü sakinləri azərbaycanlıların etnogenezində iştirak edən qarapapaq türk tayfaları olmuşdur. 19 aprel 1991-ci ildə adı dəyişdirilərək Zarişat qoyulmuşdur.

**İrəvan quberniyasının Aleksandropol qəzasında olan bu kəndin digər adı Qurdbulaqdır.** Rayon mərkəzindən 4 km məsafədə yerləşən bu kənd 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur. 1880-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışlar. Ermənilər buraya 1879-1880-ci illərdə Türkiyədən köçürülmüşdür.

**Qars vilayətinin Qars qəzasında, Amasiya rayonunda olan Musluqlu kəndi rayon mərkəzindən 17 km şimal-qərbdə yerləşir.**

Toponim türk dilində "kiçik su borusunun boğazı" mənasında işlənən musluq sözünə - u şəkilçisi artırılmaqla düzəlmişdir. Ağbaba mahalında "daşdan düzəldilən su qabı" mənasında "mustuq" sözü işlədilir. Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilmişdir. Qarapapaqlar əslində azərbaycanlıların etnoqrafik qrupudur və türk tayfalarından biridir. Bu kənd 1930-cu ildə ləğv edilmişdir.

*"Polis"*

# Əməkdaşımız bürünc qazandı

## Göygöldə çempionat keçirilib



15-17 avqust 2025-ci il tarixlərində Göygöl rayonunun Xan yaylağında "Milli Yaylaq Festivalı" çərçivəsində mas-reslinq idman növü üzrə ölkə çempionatı təşkil olunub. Yarışda 50-dən çox idmançı müxtəlif çəki dərəcələrində mübarizə aparıb. 105 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan İnzibati Həbs Olunanların Saxlanılma Mərkəzinin əməkdaşı, polis baş leytenantı Sadiq Ağamalıyev 3-cü yerə layiq görülüb. Qeyd edək ki, festival həm milli ənənələrin təbliği, həm də gənclərin idmana marağının artırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

# Yarışın qalibi oldular

## Xidmətdə olduğu kimi idmanda da peşəkardırlar

Avqust ayının 14-15-də Şirvan Olimpiya İdman Kompleksində DİN-in xidməti çoxnövçülük üzrə region yarışı keçirilib.

Yarışda 18 şəhər və rayon polis şöbələrinin əməkdaşları mübarizə aparıb. 1000 metr məsafəyə qaçış, turnikdə dartınma və üzgüçülük növlərində keçirilən yarışlarda birinci yeri Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları tutub. Belə ki, şöbə əməkdaşları ümumilikdə 1-ci yer üzrə 5 medal, 2-ci yer üzrə 1 medal, 3-cü yer üzrə 1 medal qazanıblar.

Qeyd edək ki, yarışda 2-ci yerə Şirvan, 3-cü yerə isə Biləsuvar rayon polis şöbəsinin əməkdaşları çıxıblar. Qalib əməkdaşlara diplom, medal və hədiyyələr təqdim edilib.

# Beynəlxalq uğur

## O, polisin yetirməsidir

Kikboksçumuz, DİN İdman Cəmiyyətinin yetirməsi, dünya və Avropa çempionu Amin Quliyev Çinin Çendu şəhərində 4 ildən bir keçirilən "World Games 2025" Dünya Oyunlarında mükafatçılar sırasına düşüb. Yarışda onun ilk rəqibi Madaqaskar idmançısı olub. Madaqaskar idmançısına qalib gələn Aminin güclü zərbələri qarşısında Özbəkistan idmançısı da duruş gətirə bilməyib.

Finalda isə o, Ukrayna idmançısına məğlub olaraq gümüş medal qazanıb.

Qeyd edək ki, idmançımızın şəxsi məşqçisi dəfələrlə dünya və Avropa çempionu, Əməkdar məşqçi DİN İdman Cəmiyyətinin İdman - Təlimi Şöbəsinin rəisi polis polkovnik-leytenantı Eduard Məmmədovdur.

# Qaydalara əməl edək

## Səhlənkarlıq və məsuliyyətsizlik faciə ilə nəticələnir

Yay tətili və mövsümlə əlaqədar həftəsonları istirahət etmək üçün paytaxtdan respublikamızın digər şəhər və rayonlarına üz tutanların sayında artım müşahidə olunduğunu nəzərə alan Daxili İşlər Nazirliyi sürücülərə müraciət ünvanlayıb. Müraciətdə yollarda ani diqqətsizliyin əksər hallarda ağır faciələrlə nəticələnən qəzalara səbəb olduğu vurğulanır.

Polis risklərdən sığortalanmaq, bədbəxt hadisələrin qarşısını almaq üçün sürücüləri təhlükəsizlik qaydalarına əməl etməyə çağırır:

- səfərə çıxmazdan öncə avtomobilin texniki sazlığını yoxlayın;
- sərxoş vəziyyətdə sükan arxasına əyləşməyin;
- təhlükəsizlik kəmərindən istifadə edin;
- sürət həddini aşmayın, onu yolun növünə və hava şəraitinə uyğun seçin;
- qarşıda hərəkət edən maşınla ara məsafəsinə diqqət edin;
- ötmə qaydalarına uyğun davranın;
- mobil telefon istifadəsi və diqqət yayındıran bütün digər əməllərdən çəkinin;
- Mümkünsə günün erkən saatlarında yola çıxın, - müraciətdə bildirilir.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik